# Üzünün həyası - sözünün poeziyası



...Bağban əkdiyi toxumun saflığını, yerin münbitliyini nəzərə almasa, çətin ki, o toxumdan pöhrə cücərsin.

Çox görmüşəm, bir qaya yarığından, daşların da arasından bir pöhrə boy atıb, pərvəriş tapıb. Bu, artıq təbiətin bağbanlığıdır. Amma cəmiyyətin bağbanlığı ilə təbiətin bağbanlığını qarışdırmaq olmaz. Cəmiyyətin içindən göyərib çıxmaq, boy atmaq daha çətindir. Bağbanın nəzərində əkdiyi toxumun boyu onun nəzərləri ilə sığallanır. İllər bir-birini əvəz etdikcə pöhrə də qalxır. Və bir gün həmin pöhrənin çiçəyini görən bağban sevinir, əslində, çiçək açan onun öz əməlidir. Çiçəyə qədər, bara qədər bağbanın nəzərində həmin pöhrə hələ körpədir - uşaqdır, amma çiçəkdən sonra bar gələndə artıq həmin pöhrənin köklü-köməcli ağac olduğuna bağbanın qəlbində inam işığı yanır.

Bəli, insan övladı da belədir. Gözümüzün qabağında yeniyetməliyini, gəncliyini keçirib, mənəvi boy artımı ilə istək mərtəbəsinə yetəni barınacan hələ uşaq hesab edirik. Elə ki, bar gəldi, bahar gəldi... və biz də inanırıq ki, həmin gözümüzün qabağında böyüyən uşaq uşaq deyil.

Yeniyetmə çağından bar verən Hikmətin həyatının 30 ili gözlərimin önündə keçib. «Azərbaycan» nəşriyyatının divarları arasında 30 il əvvəlki 20 yaşlı gənc boyunu, buxununu saxlasa da, zahiri görkəmi ilə yaşına dolub. Hələ o iyirmi yaşındakı gur, sıx saçlarına ağ qrov da çilələnib.

Həyat insanı yoğura-yoğura, əzə-əzə böyüdür. Həyat elə bir tirandır ki, kimsənin xahişini eşitmir, ancaq öz əzmini diktə edir. Kimin daxili-mənəvi gücü varsa, bu təzyiqlərin qabağında dayana bilir. Şair Hikmət Məlikzadə otuz ildə necə dəyişib?

Yadıma gəlir, bir qərinə əvvəl Hikmət abırlı, həyalı bir gənc idi. Söz deyəndə qızarırdı. Cavabınacan haralardan keçib gəldiyini də demək çətin deyil. Amma daxili-mənəvi mühitindəki çaxnaşmaların arasından öz fəhmi ilə, inamı ilə ləyaqətlə keçə bilir. Təsadüfi deyil ki, Hikmətin ilk gəncliyindən üzü bəri yollarda qoruyub saxladığı ən üstün keyfiyyəti elə özünün həyasıdır. Şəxsiyyətinə ləyaqət hissini təlqin edən abır ölçüsüdür.

Bəli, Hikmətin həyat yollarında itirmədiyi ən əsas keyfiyyəti də elə bu həyasıdır. Təsadüfi deyil ki, onun yazılarında, xüsusilə, şeirlərində abır-həya məntiqi xüsusi obraz kimi üzə çıxır. Ümumiyyətlə, şair özünü yazırsa, daha çox səmimidir. Daxildən gələn mənəvi tələbatı sözə çevirəndə daha çox haqlı olur. Onun çox dəyərli poetik örnəkləri var ki, mənəvi boy artımının gücünü qədərincə göstərə bilir. «Yuxuda yazdığım şeir» onun mənəiv durumunun göstəricisi kimi oxucunu aralıdan çağırır. Özü də maraqlıdır ki, Hikmət insana xas olan həya mahiyyətini Vətən mahiyyətinin üzərinə çəkir. Onun üçün Vətən övladının dərdini çəkən anadır. Özü də o anadır ki, hətta övladını itirəndə belə fəryadını öz içində çəkir:

Vətən ana kimidi; həyası sudan duru,
Sevib-oxşayanı çox, dayağı isə birdi...
Uğrunda can verənlər əbədi ölməz oldu...
...Qarşıdakı küçədə şivən qopdu qəfildən,
Gözlərini açanda qız gördü atasının
Ayaqqabısı iki, ayağı isə birdi.
Ağlamaq istəmədi, göz yaşı dondu sanki,
Balaca əllərilə dua etdi Allaha.
...O qız şəhid qızıtək düşdü dilə-ağıza,
"Vətən" yazdı hər dəfə bir parça ağ kağıza...

Bu şeir məzmununa görə Azərbaycan tarixinin faciələrlə dolu hər hansı bir zamanının əks-sədasıdır. Doğrudur, Azərbaycan xalqının tarixi taleyində məğlubiyyətlər, faciələr məqamı da az olmayıb. Ancaq həm də Azərbaycan tarixi şəhidlikdən keçən yolunun zəfər zirvəsinə də qalxa bilib. Bu, istər-istəməz bizim tarixi-mənəvi yaddaşımızın heç vaxt unudulmayacaq səhifələridir. Və bu da Hikmətin şeirlərində təbii hisslərin çağlayışı kimi üzə çıxır.

Sözünün məsuliyyətini bilən şair, sözünün dəyərinə inanan sənətkar bir şəhid qızının taleyindən yaza-yaza Vətənin taleyini kitaba çevirir. Amma iş burasındadır ki, onun Vətən anlamında yaratdığı obraz bir şəhid qızının dualarına sığınır. Şəhid general anasının qürurunda görünür. Nə qədər duyğulu, nə qədər həssas bir məqamdır: Hikmət Məlikzadə üçün Vətən ana kimidir; həyatı da sudan duru parıltısı ilə işıq salır. Bu Vətən-ananın dildə-ağızda oxşayanı, haqqında nəğmə deyəni çoxdu. Amma dayağı azlardır. O azlar ki, Vətən ağacının qurumaq məqamı çatanda ona öz qanı ilə can verir, ruh verir.

Belə düşünmək olar ki, Vətəni bir tərəfdən durub bəy tərifinə qərq edəsən, şöhrətpərəst adamsayağı onu dildə, ağızda sözün əvvəlinə çəkəsən. Heç Vətənin tükü də tərpənməz, Heç Vətən bu tərifləri eşitmirmiş kimi özünün təmkin atından enməz.

Hikmət Məlikzadə şairdir. Şairliyin də taleyinə düşən səyyahlıqdır. Maraqlıdır ki, o, öz şeirlərində səyyahlığını üzə çıxarmaq üçün savannalara, səhralara üz tutmur, heç Muğanı da gəzmir. Şirvanın Şah Dağına qalxmağa da ehtiyacı yoxdur. O, elə öz içində, öz varlığında ruhunun səyyahına çevrilir. Onun Şirvanı da, Qarabağı da, Şuşası da, Təbrizi də özünün daxili-mənəvi mühitindədir. O, bu daxili aləmin içindən keçərək gördüklərini yazır. Bəzən sözünün hansı poetik gücdə olduğunun da fərqinə varmır.

*(Davamı 2-ci səhifədə)*

Belədə, daxildən gələn səsin pıçıltısına baxaraq irəliləyir, ruhunun keçilməzlikləri ilə addımlayır. Və bu zaman daxili məninin pıçıltıları elə onun öz dilindən səslənir:

Ruhum hürkək işıldaböcək kimi dəli,
Qaranlıqlar qorxu vadisində çırpınan boş beşik.
Uşaq səsinə həsrət bir qadının
Allaha yalvarışı nə qədər acı...
İçimi yandırır teleqraf dirəyində bardaş qurmuş
ac yapalağın tox baxışında səyriyən cəhənnəm sızıltısı.
Həyat türmə əzabı qədər rəngsiz.
Günahı olmadığı halda
tutulmaqdan ağır dərdi olmaz adamın.
Adamlar torpağa yükdü bəlkə də.
Torpağın tapdanmaq planı çoxdan dolub.
Sanki günahla adam arasında müharibə olub...
Bayırda qoyma elçi daşımı.

Şairin daxili-mənəvi mühiti əslində, bütün təbiəti ehtiva edir. Burada şah sarayı da var, burada hamar yolların qurtardığı, tikanların, çınqılların başladığı keçilməzliklər də var... və nəhayət, arzusuna, məramına doğru can ata-ata gəlib çıxdığı sərhəd dirəkləri də var. Bir mağar əhvalı, bir aşığın dastan danışmağı, zamanları bir-birinə çəkib bağlayan duyğu məntiqi Hikmət Məlikzadənin nə qədər sərhədsiz düşüncə sahibi olduğunu təsdiqləyir.

Yaxşıdır, yuxarıda elçi daşı obrazı gözlərimizin önündən keçdi. Elçi daşı hamı üçün əl-yetən olmalıdır. Bu, insanların inam daşıdır. Amma Hikmət Məlikzadə inamının sonsuzluğuna güvənənləri xəbərdar edir. Bayırda qalan elçi daşından gözünü çəkmə, - deyir. Və sanki bununla çatdırır ki, şər xislətli insanlar - insan donunda şeytanlar həmin elçi daşını oğurlaya bilər. Bu, insanların inamını oğurlamaqdır, bu, insanların varlığına təcavüzdür, həqiqəti oğurlamaqdır. Hikmət Məlikzadənin qan içənin kimliyi zəlilikdir. Elə bu ifadənin arxasında bir zəlillik sözü də yaddaşımıza yeriyir. Qan içənin hərdən sərxoş-sərxoş başını qaldırıb qanını içdiyinin kimliyinə baxması, əslində, onun özünün - qaniçənin zəlilliydir, bəbəxtliyidir. Çox təəssüf ki, o, zəlilliyini dərk edənəcən çoxlarını candan edəcək. Amma yaxşıdır. Şair dəliliklə zəliliyi də qarşılaşdırır. Və dəliliyi xəstəlik kimi yox, ruhun kamilliyi kimi təlqin edir. Əslində 500 ildir ki, Füzuli Məcnununun kamilliyi haqqında danışırıq. Bir kimsə onun ruhi xəstəliyindən danışmır. Çünki aşiqlik mənəvi ucalığa aparan yoldur:

Yaman tərs baxırsan cırıq şəklimə,
Kim bilir, o şəkil yadındı bəlkə?
Gözünün önündə dilənən qadın
Küçəyə atdığın qadındı bəlkə?

Şairin həyəcanqarışıq sualı ilə dilə gətirdiyi ayrılıq hansı ayrılıqdır? Bu, necə ayrılıqdır? Hiss olunur ki, şair onu ucalığa çəkən duyğuları ilə daha yuxarılara qalxır. Və onu bir də təzədən mənəvi xırdalıqlar mühitinə gətirmək olmaz. Və şairin nəzərdə tutduğu ayrılıq da həmin ayrılıqdır.

Fəlsəfi poeziyamızın yeni kamillik mərhələsinə çatmasında Hikmətin xüsusi yeri var. Sadəcə, biz onun bir neçə şeirinə nüfuz etməyə çalışdıq. Çalışdıq ki, biz onun hüdudsuz aləminin həyəcanlarını doğuran səbəblərini göstərək. Bu həyəcanların əsas mənbəyi həyatdakı təzadlardır.

Hikmət Məlikzadə mütəfəkkir şair kimi, çevik qələmi olan publisist kimi, elmi dərinliklərə nüfuz edə bilən tədqiqatçı alim kimi yazıb nəşr etdirdiyi kitabları ilə özünü təsdiq edib. İyirmi beşdən çox kitabın müəllifidir. Bir neçə poetik toplularının adını çəkmək olar: «Nağıl ömür» («Təhsil» nəşriyyatı, 1996), «Bir qara kölgədi ruhum canımda» («Araz» nəşriyyatı, 2000), «Sonsuz iztirabların kölgəliyidi adam» («MTR-Qrup» mətbəəsi, 2004), «Sarı yarpaqların görüş yeridi nəm oturacaqlar» («MTR-Qrup» mətbəəsi, 2008), «Qəzəllər» («MTR-Qrup» mətbəəsi, 2016).. Əlbəttə, bu, onun şeir kitablarının bütöv siyahısı deyil. Şübhəsiz, maddi imkan sıxıntıları olmasaydı, Hikmət kimi güclü fikir daşıyıcısı olan şairin nəsr əsərləri daha çox olardı. Onun şair-tərcüməçi Giya Paçxataşvilinin yaradıcılığı, Raqif Nazimoğlunun, Mənzərə Sadıqovanın, Nəzakət Məmmədlinin, Xatirə Fərəclinin və digərlərinin, yəni müasirlərimizin ədəbi fəaliyyətini tədqiq edən elmi-publisistik əsərləri elə



# ÜZÜNÜN HƏYASI - SÖZÜNÜN POEZİYASI

düşüncəsində bunların bircə adı var - mərdiməzar. Yuxarıdakı misraların cəngində bu proses özünü labüd göstərir:

Mərdimazarın yekəsi, balacası olmur.
Daha nazlı gözəllər «vəsf» eləmir dul aşığı.
Unutma, hər yaddaşın bir xatirə şəkli var,
Hər şəklin də bir xatirə bulaşığı.
Bir vaxtlar burada sevgi küçəsi vardı,
Hərə bir daş atırdı qərib elçilərə.
İndi o küçədə sevgi sadəcə bir nağıldı.
O küçənin qərib elçiləri də dağıldı.
İndi orada günah cücərdir axmaq vücudlar.
İndi o küçədə təkcə sən paksan, yorğun qadın.

Korlanmış, çirklənmiş, bir sözlə, həyasını itirmiş, abırından keçmiş olan küçənin nə demək olduğunu anlamaq o qədər də çətin deyil. Bu küçəni bu günə qoyan Hikmətin təkcə təxəyyülünün məhsulu deyil, həm də həyatda mövcud olan mərdiməzardır.

Şeirin içindən keçdikcə yaşadığımız həyatın iztirabları gözümüzün önündə tikana çevrilir. Və bu tikan bizim təkcə əlimizi, ayağımızı didmir, həm də varlığımızı didir, ruhumuzu sökür.

Göründüyü kimi, Hikmət korrupsiyadan, rüşvətdən, alıb-aldatmaqdan danışmır. Əvəzində mərdimazarın fəsadlarından danışır. Ancaq bizim gözümüzün önündə Vətənə xəyanətin korrupsioner, rüşvətxor, alıb-aldadan obrazları sıralanır.

«Ruhum hürkək işıldaböcək» şeiri Hikmətin iddiasız, sakit, təvazökar təbiətindən xəbər verir. Biz bu təbiətin özünü gəzdikcə, onu seyr etdikcə yaşı əlliyə çatmış və mənim gözlərimdə hələ də gənc olan, abır-həyasını dəyərli xəzinə kimi qoruyaraq, düşüncəyə çevirərək poeziyasına gətirən şairi həm də müdriklik mərtəbəsində görürük. Daha mütəfəkkir-şair olmağın başqa hansı yolu, təhəri, epiteti var?

Bəli, Hikmət mütəfəkkir şairdir. Onun şeirlərində çox nadir, dildə az işlənən ifadələr var ki, təzadlara çevrilir və düşüncə axını kimi insanın varlığına dolur. «Şeytan hər adamdan...» ifadəsi ilə başlanan şeirin söz çəməninə yeridikcə çox qəribə təzadlarla qarşılaşırıq:

Şeytan hər adamdan təmənna güdməz,
Kimlər ki, qəm içir, zəli sayılmır.
Sənə kim deyib ki, dəlisən, boş ver,
Sevda dəliləri dəli sayılmır.

Necədir əziz oxucu, qəm içməklə, qan içməyin fərqini necə görürsən? Qəm içənin kimliyi məlum,

Hər künc bir günahın bitdiyi yerdi,
Ölmək əzrayıla yan almaq deyil.
Pərvanə şam üstə can vermir, çünki
Şamın qəsd-qərəzi can almaq deyil.

Müəllif lirik mənin kimliyinə işıq salır. Onu tanımaq istəyən, onu görmək istəyən kimdirsə, onunla öz şəklinin timsalında üz-üzə dayanır. Pərvanənin şam ətrafında dolanmağı və şama öz canını fəda etməyi şamın qatiliyindən deyil.

Hikmət doğru deyir, şamın pərvanəni öldürməyi qatilliyindən deyil. Pərvanənin sevgisindəndir; şamın bu sevgiyə öz odu ilə, alovu ilə cavab verməyindəndir.

Maraqlı məqamlar misra-misra dəyişir, yeni mənalar gəlir, amma şeir özünün onurğa sütununu, yəni məntiqini axıracan qoruyub saxlayır. Tanrı, şəkil, adam obrazları növbələnir. Daxili bir bağlılıqla bu obrazlar biri digərinin yaranması üçün əsas olur:

Tanrı bir qapıda min ünvan görür,
Qapının ağzına tük asma, gecdir.
Adam şəkil olur öləndən sonra,
Ürəyə bu qədər yük asma, gecdir.

Təsbeh də, dua da baş aldatmaqdır,
Pula qul olanın imanı olmur.
Sən qəmi özünə öyrətmə, quzum,
Eşq sirli adadı, limanı olmur.

Demək, bir oxucu olaraq Hikmətin məntiqi nəticəyə çevirdiyi və insanın mənəviyyatında bir boşluq yaratdığı vecsiz duaların mənasız vaxt yeyən təsbehlərin mahiyyəti də elə bütün vecsizliyi ilə üzə çıxır. İnsan əli faydalı iş üçün yaranıb. İnsan əli ağac əkməlidir, yazı yazmalıdır, şam yandırmalıdır ətrafdakı qaranlığı qovmaq üçün. Amma bu əl təsbehdən yapışıb insan ömrünü necə oğurlayır, necə yeyir? Bütün bunları düşünəndə insan dəhşətə gəlir. Demək, əslində, yeyicilik insanı öz içində gizlənib. Təsbehə dönüb üzə çıxır və insanın ömrünü yeməyə başlayır. Vaxt isə ömür deməkdir.

Əlbəttə, Hikmət Məlikzadənin mütəfəkkir şair olaraq, düşüncə adamı olaraq sevdaların insan qəlbində qoruyucu obrazını görməsini təbii qarşılamalıyıq. Hər sevən ürəyin bir sevda qarğışı var. Kim sevən ürəyə qəsd edirsə, sevda qarğışı da məhz onu tutur:

Sevda qarğışı var hər sevən qəlbdə,
Gizlin vidasıdı su, ayrılığın.
Bəlkə biz bir daha görüşməyək heç?
Bəlkə vaxtı çatıb bu ayrılığın?!

ədəbi mühitimizə dəyərli xidmətinin nümunələridir. Ayrı-ayrı vaxtlarda daha dərin mövzulara da girişməkdən çəkinmir. Nəsiminin, Füzulinin, Yaşar Qarayevin, digər görkəmli klassiklərin əsərlərində gizlənmiş mənaların açımına həsr edilmiş monoqrafiyaları da şair-mütəfəkkirin mənəvi imkanlarının tükənməzliyinin göstəricisidir.

Hikmət Məlikzadə 1972-ci il, yanvarın 6-da Şamaxı rayonunda doğulub. Ədəbi mühitdə çox gənc ikən tanınıb. Bir neçə il bundan əvvəl prezident təqaüdü ilə də mükafatlandırılıb. Sağlam bir ailənin başçısıdır, sevgili atadır. Xalqı tərəfindən sevilən şair olduğu kimi, dostları tərəfindən də sevilən, yeri, mərtəbəsi qorunan şəxsiyyətdir.

Yazının əvvəlində bağbandan danışmışdıq. Çiçək gətirən, bar-bəhər verən pöhrədən söhbət açmışdıq. Axı mən Hikmətin pöhrə zamanını görmüşdüm. Aradakı otuz ili onun mənəvi boy artımını kitab-kitab izləmiş, yazı-yazı görmüşəm. Beləcə, Hikmət Məlikzadə ömrünün çiçək, bar-bəhər gətirən zamanına gəlib çatıb. Əlli yaşı isə Koroğlu təbirincə, ömrün yarısı adlandırmaq olar. Axı Hikmət özünü yazan şairdir. Özünü yazan şair elə insanları yazan şairdir, hər kəsi yazan şairdir.

Yaxşı bax, oxucu dost, bəlkə, sən də özünü gördün?! Hikmət Məlikzadə özünü tanıdığı kimi, səni də yaxşı tanıyır... Nigaran qalma, elə məni də, yoldan keçən bir kimsəsizi də pis tanımır.

Əlli ildi qorxaq gözlərini buluda dikib
göy adlı vakuumda nə axtarırsan, zavallı kişi?
Bu dünya zurnalı, qavallı, kişi.
Mısmırığını sallayan adama heç nə verməzlər.
Əvvəlin gəlmədisə, axırın da gəlməz.
Əlini qaşının üstünə yapışdırıb
mağmın-mağmın boz çöllüklərə də baxma,
Baxma, kişi, baxma, naxırın gəlməz...

Şairlikdə mükəmməlliyin bir hökmü da özünü, insanları - hər kəsi tanımaqdan keçir.

Mənəvi ucalmanın zirvə sonluğu yoxdur. Mənəvi ucalmanın yolu Allahın dərgahınacan gedib çatır.

Bəli, Hikmətin bir zaman gördüyüm qara saçları indi ağ çiçəklər gətirməkdədir. Bu ağ çiçəklərin bir ağlıq, saflıq təəssüratı var. Həmin ağlıq və saflıq Hikmətin əlli yaşına qədər qoruduğu dünyasıdır.

*Əli Rza XƏLƏFLİ*
*21.10.2021*